

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 210 (21.362)

*28 oktyabr 2015-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Monteneqronun Baş naziri Milo Cukanoviçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan-Monteneqro ikitərəfli əlaqələrinin inkişafının razılıq doğurduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı dostluq münasibətlərinin qurulduğunu deyib. Prezident İlham Əliyev Monteneqronun Baş naziri Milo Cukanoviçin başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfərinin əməkdaşlığımızın inkişafı ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirib.

Baş nazir Milo Cukanoviç Prezident İlham Əliyevin Monteneqro ilə əlaqələrə verdiyi önəmi ölkəsinə olan böyük dostluq münasibətinin ifadəsi kimi dəyərləndirib. İkitərəfli münasibətlərimizin səviyyəsindən razılığını bildirən Baş nazir Milo Cukanoviç son illər ərzində əməkdaşlığımızın uğurla inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.



Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli Sərəncamına əsasən

**İbrahimov İlham Sadət oğlu**

Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi

**Allahverdiyev Mehman Dünyamalı oğlu**

Naxçıvan Şəhər Məhkəməsinin hakimi təyin edilmişlər.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Oktyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Jandos Asanovla görüşmüşdür.

Qonağı salamlayan Ali Məclisin Sədri Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibinin Naxçıvana səfərinin əhəmiyyətindən danışmışdır. Naxçıvanda Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü zamanı Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında sazişin imzalandığını və Türkdilli Ölkələrin Parlament Assambleyasının fəaliyyətinə dəstək verildiyini xatırladan Ali Məclisin Sədri türkdilli ölkələr arasında əlaqələrin inkişafında Naxçıvanın rolunu diqqətə çatdırmışdır.

Naxçıvana ilk dəfə səfər etdiyini bildirən Jandos Asanov göstərilən qonaqpərvərliyə görə minnətdarlıq etmiş, Azərbaycanın bu qədim diyarının türkdilli ölkələr üçün mühüm əhəmiyyət daşıdığını vurğulamışdır. Baş katib Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafının məmnunluq doğurduğunu bildirmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Naxçıvanla tanış olub



***Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Jandos Asanov Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində, ilk olaraq, ulu öndərin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət edib.***

Baş katib Naxçıvan Biznes Mərkəzində olub, muxtar respublikada istehsal olunan məhsullara baxıb. Bildirilib ki, mərkəzin əsas fəaliyyət sahəsi sahibkarların maarifləndirilməsi, iş adamlarına ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar, dünya və ölkə iqtisadiyyatındakı yeniliklər, sahibkarların yeni iş təcrübələri, marketinq fəaliyyəti, reklam işi barədə məlumat verməkdir. Bu gün muxtar respublikada 357 növdə, 1106 çeşiddə məhsul istehsal edilir. Hazırda Naxçıvan Biznes Mərkəzində 65 sahibkarlıq subyektində istehsal olunan müxtəlif çeşiddə məhsul nümayiş etdirilir.

Naxçıvan Dövlət Xalça Muzeyində qonağa burada nümayiş etdirilən müxtəlif xalça növləri haqqında məlumat verilib. Bildirilib ki, Naxçıvan uzaq keçmişdən öz xalçaları ilə məşhur olub. Regionun qədim İpək Yolu üzərində yerləşməsi burada xalçaçılığın, ümumilikdə isə ticarətin inkişafına böyük təsir göstərib. Hazırda muzeydə nümayiş etdirilən müxtəlif dövrlərə aid xalça növləri də Naxçıvanın zəngin toxuculuq və sənətkarlıq ənənələrinə malik olduğunu göstərir.

Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Naxçıvan şəhərindəki Əcəmi Seyrəngahı ilə tanışlığa ulu öndərimiz Heydər Əliyevin büstünü ziyarət etməklə başlayıb. "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olan Jandos Asanova məlumat verilib ki, kompleksdə yerləşən və Azərbaycan milli memarlığının möhtəşəm abidəsi olan Möminə xatın türbəsi 1186-cı ildə tikilib. Həmin dövrdə Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz həyat yoldaşı Möminə xatının məzarı üzərində məqbərə yaradılmasına qərar verib və bu məqbərə Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən inşa edilib. Hazırda bu muzey kompleksində açıq səma altında Naxçıvan Muxtar Respublikasının ərazilərindən tapılan müxtəlif dövrlərə aid maddi-mədəniyyət nümunələri – daşdan düzəldilmiş qoç heykəllər, daş kitabələr, müxtəlif daş fiqurlar, qəbirüstü sənduqələr nümayiş etdirilir. Xan sarayı ilə də tanış olan qonağa məlumat verilib ki, bu muzey Naxçıvan xanlığının milli dövlətçiliyimizdəki rolu, Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri nəzərə alınaraq yaradılıb. Hazırda 8 ekspozisiya zalından ibarət olan muzeydə 1200-ə yaxın eksponat var. Bu eksponatlar içərisində arxiv sənədləri, fotoşəkillər, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi nümayiş etdirilir.

Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi daha sonra "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanış olub. Duzdağ Fizioterapiya Mərkəzində bildirilib ki, Duzdağ şaxtalarında mövcud olan hava şəraiti, buranın quruluşu, dəniz səviyyəsindən yüksəkliyi, temperatur, rütubət, atmosfer təzyiqi və oksigenin faizlə miqdarı müalicənin ideal nəticələr verməsinə şərait yaradır. Bronxial-astma xəstəliklərindən əziyyət çəkənlər burada müalicə olunurlar. Xəstəxanaya dünyanın müxtəlif ölkələrindən xəstələr də müraciət edirlər.

Dünən Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Jandos Asanovun Naxçıvan Muxtar Respublikasına səfəri başa çatıb.

***Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Naxçıvan Bölməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə keçirilən "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumu öz işini başa çatdırıb.***

## Beynəlxalq elmi simpozium başa çatıb



Simpoziumun bağlanış mərasimində çıxış edən AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 25 iyul tarixli Sərəncamı ilə təsdiq etdiyi "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı"na uyğun olaraq keçirilən "Naxçıvanda Dədə Qorqud" beynəlxalq elmi simpoziumunda mühüm elmi nəticələr əldə olunub. Simpozium bir daha onu göstərdi ki, Naxçıvan Muxtar Respublikasında elmin, təhsilin inkişafı, milli-mənəvi dəyərlərin qorunması, gələcək nəsillərə ötürülməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Bu istiqamətdə Naxçıvanda təşkil olunan elmi tədbirlərə diqqəti çəkən İsmayıl Hacıyev onu da vurğulayıb ki, belə beynəlxalq simpoziumlara ev sahibliyi edilməsində Naxçıvan Muxtar Respublikası zəngin təcrübəyə malikdir. Simpoziumda iştirak edən Azərbaycanın nüfuzlu alim və tədqiqatçıları, Türkiyə və İran İslam Respublikasının ali təhsil müəssisələrinin nümayəndələri də bunu bir daha təsdiq etdilər.

Akademik bildirib ki, son illərdə "Kitabi-Dədə Qorqud" irsinin araşdırılması, Naxçıvanla bağlılığı və yaşadılması istiqamətində muxtar respublikada mühüm tədbirlər həyata keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində "Dədə Qorqud meydanı"nın salınması haqqında" 9 mart 1999-cu il tarixli Sərəncamı ilə Naxçıvan şəhərində Dədə Qorqudun abidəsi ucaldılıb və Dədə Qorqud meydanı yaradılıb, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi ilə bağlı elmi konfrans keçirilib, dastan üzrə müxtəlif istiqamətlərdə tədqiqatlar aparılıb.

"Aparılan araşdırmalar, tarixi və coğrafi dəlillər sübut edir ki, "Kitabi-Dədə Qorqud" dastanında təsvir edilən bir sıra tarixi hadisələr məhz Naxçıvan ərazisində baş verib. Muxtar respublikada "Kitabi-Dədə Qorqud"la bağlı çoxsaylı yer-yurd adları mövcuddur", – deyən akademik İsmayıl Hacıyev belə tədbirin təşkili üçün simpozium iştirakçıları adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını ifadə edib.

Sonra simpoziumun bölmə iclasları rəhbərlərinin hesabatları dinlənilib.

AMEA-nın müxbir üzvləri Fəxrəddin Səfərli, Əbülfəz Quliyev, Məhərrəm Qasımlı, iqtisad elmləri doktoru, professor Asif Şirəliyev bölmə iclaslarında dinlənilmiş məruzələr, məruzələrdə Azərbaycan xalqının ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanları ilə bağlı üzə çıxarılan yeni tədqiqatlar, əldə edilmiş elmi nəticələr, dastanların Naxçıvanla bağlılığı barədə məlumatlar verərək simpoziumun yüksək təşkilatçılıqla başa çatdığını bildiriblər. Qeyd olunub ki, elmə də "Kitabi-Dədə Qorqud" dastanlarının Naxçıvanla sıx bağlılığı bəllidir. Simpoziumda xalqımızın bu ədəbi və tarixi abidəsinin Naxçıvanla bağlılığı bir daha sübuta yetirilib.

Tədbirdə çıxış edən AMEA Folklor İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Muxtar İmanov və həmin institutun əməkdaşı, professor Kamran Əliyev muxtar respublikada belə elmi tədbirlərin yüksək səviyyədə təşkili üçün minnətdarlıqlarını bildiriblər.

Sonra iştirakçılara simpoziumda iştiraketmə vərəqləri təqdim edilib.

Bağlanış mərasimindən sonra qonaqlar Duzdağ Fizioterapiya Mərkəzi və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

*Xəbər verdiyimiz kimi, bu günlərdə Mərkəzi Neftçilər Xəstəxanası Ürək-damar xəstəlikləri şöbəsinin müdiri, ürək və damar cərrahı Rəşad Mahmudovun rəhbərlik etdiyi heyət Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 10 nəfər üzərində açıq ürək, 1 nəfərdə isə periferik damar əməliyyatı aparıb. Böyük uğurla keçən əməliyyatlardan sonra tanınmış ürək-damar cərrahı, Azərbaycan Respublikasının Əməkdar həkimi Rəşad Mahmudovla görüşərək ondan müsahibə aldıq. O, Naxçıvan Muxtar Respublikasında onlarla açıq ürək əməliyyatları aparıb. Onunla söhbətimiz də bu mövzuda oldu. Rəşad Mahmudov Naxçıvanda uzun illərdir, həyata keçirilən xoşməramlı aksiyalar barədə dedi:*

# *Rəşad Mahmudov:* Naxçıvandakı ürək-damar cərrahları müstəqil şəkildə mürəkkəb əməliyyatlar aparacaq səviyyədədirlər



– Naxçıvan Muxtar Respublikasında uzun illərdən bəri davam edən növbəti açıq ürək əməliyyatları aksiyası bu gün də uğurla davam etdirilir. Bu dəfə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində aksiyanı Mərkəzi Neftçilər Xəstəxanası ilə Naxçıvandakı həkimlər və kardioloqlar ilə birlikdə həyata keçirdik. Birgə fəaliyyət nəticəsində uğurlu ürək əməliyyatları apardıq. Əməliyyat apardıqlarımız arasında 11 aylıq körpə də var idi, yaşı 75 olan müxtəlif ürək xəstəliklərindən əziyyət çəkən xəstələr də. Biz ürək əməliyyatları ilə birlikdə ambulator müayinələr də apardıq. Ürək xəstəliklərindən əziyyət çəkən xəstələrə lazımi tövsiyələr, məsləhətlər verdik.

Bütün bunlar son 20 ildə muxtar respublikada səhiyyə sahəsində görülən əsaslı işlərin nəticəsidir. Bizim üçün qürurverici hadisədir ki, artıq bu gün istər Bakıda, istərsə də Naxçıvanda ürək əməliyyatları yüksək səviyyədə aparılır. Ən əsası isə belə mürəkkəb əməliyyatlarda muxtar respublikadan olan yerli kadrların birbaşa iştirakı böyük nailiyyətdir. İndiyədək Naxçıvanda 800-dən çox belə ürək əməliyyatlarının aparılması, həqiqətən, böyük uğurdur. Bu həm də Naxçıvan Muxtar Respublikasında səhiyyənin inkişafını göstərən önəmli bir rəqəmdir.

***– Rəşad həkim, siz qeyd etdiniz ki, mürəkkəb ürək əməliyyatlarında muxtar respublikanın yerli həkim heyəti də yaxından iştirak edir. Bu mənada, həkimlərimizin peşəkarlıq səviyyəsini necə qiymətləndirmək olar?***

– Sevindirici haldır ki, səhiyyənin digər sahələri ilə yanaşı, cərrahiyyə əməliyyatlarının aparılması sahəsində də Naxçıvanda böyük təcrübə formalaşıb. Artıq yerli kadrlar tərəfindən günlük angioqrafiyaların tətbiqi, angioqrafiyalar ilə birlikdə anoplastika deyilən, təcili infarktla gələn xəstələrə lazımi müdaxilələrin göstərilməsi Naxçıvanda yüksək səviyyədə həyata keçirilir. Qeyd etdiyim kimi, bu, muxtar respublikada hər bir sahədə nəzərəçarpan inkişafın səhiyyədə də mövcud olduğunu göstərən amildir.

***– Bəlkə də, buna görə əvvəllər Bakıdan gələn həkim heyətinin say tərkibi hər il azalır.***

– Bəli. Bildiyiniz kimi, 2007-2008-ci illərdə muxtar respublikaya 30-35 nəfərlik bir həkim heyəti ilə gəlirdik. Nəyə görə? Çünki həyati risklərlə dolu olan mürəkkəb əməliyyatlar ancaq peşəkar həkimlər tərəfindən aparıla bilər. Bu gün isə ən böyük heyətimiz artıq 8-10 nəfərdən ibarət olur. Çünki bu gün muxtar respublikada ən mürəkkəb əməliyyatlar belə, Naxçıvandakı yerli kadrlar tərəfindən həyata keçirilir. Onlar heç kəsdən dəstək almadan uğurlu əməliyyatlar apara bilirlər. Bu gün muxtar respublikaya gələn 8-10 nəfərlik qrupda olanlar arasında əməliyyat, anesteziya, süni qan dövranı sistemi, reanimasiya üzrə bir ixtisaslı həkim olur. Bu da ona görədir ki, xəstələrimiz özlərini güvəndə hiss etsinlər. Bilsinlər ki, əməliyyatlarda Mərkəzi Neftçilər Xəstəxanasından gələn həkim heyəti də var və lazım olan məqamda onlar müdaxilə edəcəklər. Ancaq indiyədək buna ehtiyac olmayıb. Yəni söhbət ancaq insanların inamını qazanmaqdan gedir.

Digər tərəfdən, muxtar respublikada həkimlərin iş şəraiti də çox gözəldir. Burada mövcud olan xəstəxana binaları ən müasir tələblər səviyyəsində tikilib və ya təmir olunub. Mən istifadəyə veriləcək olan Naxçıvan Muxtar Respublika Xəstəxanasını gəzərkən bunun bir daha şahidi oldum. Bu xəstəxanada yaradılan şərait, həqiqətən də, insanı valeh edir. Təkcə binanın xarici görünüşü deyil, bir ixtisaslı həkim kimi deyə bilərəm ki, xəstəxananın içərisi də yüksək səviyyədədir. Xəstələrin öz problemlərini həll etmək üçün qurulmuş mükəmməl bir sistem yaradılıb. İnanın,`insan fəxr edir.

Əminliklə deyə bilərəm ki, hətta Avropanın bir çox ölkələrində bu cür xəstəxanalar tapmaq çox çətindir. Əminəm ki, həm Naxçıvan əhalisi, həm də Naxçıvanın səhiyyə işçiləri belə imkanlara sahib olduqları üçün həmişə bu ölkənin, bu gözəl torpağın, Azərbaycanın vətəndaşı olmaqla fəxr edirlər. Bunun qədrini bilməliyik.

Biz biliklərimizi, təcrübəmizi də bu səviyyəyə çatdırmaq üçün əlimizdən gələni əsirgəməməliyik. Çünki bu gün dünyada daim yeni təcrübələr yaranır, kəşflər edilir. Elm, bilik, təcrübə hər gün yenilənir. Biz vaxtaşırı bunu izləməliyik, yeniliklərdən xəbərdar olmalıyıq, təcrübə mübadiləsi ilə intensiv şəkildə bilik imkanlarımızı artırmalıyıq. Bu gün muxtar respublika səhiyyə işçilərinin qonşu ölkələrdə təcrübə keçməsi, təcrübə mübadiləsi aparması çox təqdirəlayiqdir. Türkiyə və İran universitetləri ilə əlaqələrin yaradılması, Bakıda təcrübələrin öyrənilməsi müsbət haldır.

Bir reallığı da qeyd etmək istərdim. Son 20 il ərzində kadr siyasəti ilə əlaqədar postsovet məkanında səhiyyə sahəsində ən qabaqcıl təcrübə birmənalı olaraq, Azərbaycana məxsusdur. Bu sahədə ölkəmiz birinci yerdə qərarlaşıb. Ulu öndərimiz Heydər Əliyevin yolu ilə uğurla addımlayan Azərbaycanda xarici ölkələrdə təhsil almağa göndərilən kadrların bu gün vətənə qayıdaraq fəaliyyət göstərməsi müsbət irəliləyişlərin əldə edilməsinə öz təsirini göstərir. Səhiyyə sahəsində biz bunu daha aydın görürük. Mən birmənalı şəkildə deyə bilərəm ki, MDB ölkələri içərisində ixtisaslı Avropa təhsili almış kadrların çoxluğuna görə ölkəmiz ön sıralardadır. Bu həm də ölkəmizin səhiyyə sisteminin dünyanın səhiyyə sisteminə inteqrasiyasına əsaslı zəmin yaradır.

***– Naxçıvan səhiyyəsində daha çox hansı yeniliklər sizin diqqətinizi cəlb edir?***

– Naxçıvan Muxtar Respublikasında səhiyyənin bütün sahələri, o cümlədən kardiologiya sahəsində təqdirəlayiq işlər görülür. Şəhər və hətta kəndlərdə tibbi xidmətin yüksək səviyyədə həyata keçirilməsi öz nəticələrini verir. Birinci, ambulator müayinələrin vaxtında aparılması, diaqnozun vaxtında qoyulması çox önəmlidir. Məhz bu səbəbdən əvvəlki illərlə müqayisədə bizim tərəfimizdən müayinə olunan xəstələrdə fəsadlara daha az rast gəlinir. Naxçıvanda yaşayan insanların özlərinin də fərqində olduqları həqiqət ondan ibarətdir ki, əvvəllər bir sıra mürəkkəb əməliyyatlar üçün, hətta deyərdim ki, sadə əməliyyatlar üçün insanlar qonşu ölkələrə üz tuturdular. Bu gün belə bir hal xeyli azalıb. Bu, səhiyyə sahəsində muxtar respublikada əldə olunan inkişafın ən bariz nümunəsidir.

Düşünürəm ki, ölkəmizdə mövcud olan sabitlik və inkişaf var olduğu müddət ərzində səhiyyəmiz daha da inkişaf edəcək və daha böyük nailiyyətlər əldə olunacaqdır.

***– Sağlamlıq hər bir insan üçün ən böyük nemətdir. Son dövrlər bütün dünya üzrə ürək-damar xəstəliklərinin artması da günümüzün reallığıdır. Bəs bu kimi xəstəliklərə düçar olmamaq üçün nə etmək lazımdır? Peşəkar həkim kimi oxucularımıza nəyi məsləhət görərdiniz?***

– Bildiyiniz kimi, uzun illərdən bəridir ki, ölkəmizin müxtəlif regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında bəlkə on mindən çox insan üzərində müayinələr aparmışıq. Müayinələr nəticəsində görürük ki, bir çox xəstələrimiz, necə deyərlər, sağlam həyat tərzi yaşamır. Sağlam həyat tərzi dedikdə, günlük yuxu rejiminə riayət olunmasını, sağlam qidalanmağı, orqanizmə xüsusilə zərər verən siqaretdən, içkidən, stresdən uzaq həyat tərzi keçirməyi, hər gün idman etməyi və ya piyada gəzməyi, təmiz hava qəbul etməyi və artıq çəkidən xilas olmağı nəzərdə tuturam.

Sağlamlığımızda risk faktorlarının da rol var. Əgər ailə üzvlərimizdə istər şəkərli diabet, istər yüksək təzyiq, istərsə də ürək xəstələri varsa, o zaman mütəmadi müayinələrdən keçmək lazım gəlir. Vaxtaşırı müayinələr gələcəkdə daha ciddi problemlərin, böyük fəsadların qarşısını alır. Müasir tibbin imkanları buna geniş şərait yaradır. Yəni ümidsizliyə düşmək lazım deyil ki, mənim ailə üzvlərimdə hansısa xəstəlik varsa, məndə də olacaqdır. Bu, olmaya da bilər. Ancaq yenə də risk etməmək lazımdır. Ayıracağınız bir saat vaxt ömrünüzü xilas edə bilər. Ona görə də vaxtlı-vaxtında müayinələrdən keçmək lazımdır. Eyni zamanda, qeyd etdiyim kimi, sağlam həyat tərzi yaşamaq vacibdir. Əks təqdirdə yeni xəstəliklərin yaranma ehtimalı artır.

Onu da deyim ki, son iyirmi ildə ölkəmizdə, o cümlədən muxtar respublikada aparılan məqsədyönlü siyasət nəticəsində artıq insanların orta ömür həddi getdikcə yüksəlməyə başlayıb. Əvvəllər əgər biz 40-50 yaşlarında insanları əməliyyat edirdiksə, bu gün artıq 70-80 yaşında olan insanların əməliyyata ehtiyacı olur. Bu isə böyük irəliləyişdir.

✍ **Rauf ƏLİYEV**

# Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasında növbəti seminar-treninq



*Oktyabrın 27-də Mərkəzi Seçki Komissiyasında Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 1 noyabrda keçiriləcək seçkilərlə əlaqədar olaraq seçkilərə 5 gün qalmışadək yaradılan 24 seçki məntəqəsinin məntəqə seçki komissiyalarının sədr, katib və üzvləri üçün seminar-treninq keçirilib.*

Tədbiri giriş sözü ilə açan Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov seçki günü məntəqə seçki komissiyaları üzvlərinin vəzifələri barədə məlumat verərək bildirib ki, səsvermə günü seçki məntəqəsində yalnız məntəqə seçki komissiyasının üzvləri, Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyasının nümayəndələri, seçki komissiyasının məşvərətçi səs hüquqlu üzvləri, akkreditasiyadan keçmiş yerli və beynəlxalq müşahidəçilər, qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, siyasi partiyaların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, o cümlədən kütləvi informasiya vasitələri nümayəndələri və seçicilər ola bilərlər. Seçkilər günü səsvermə saat 8⁰⁰-dən 19⁰⁰-a kimi keçirilir. Saat 7⁵⁰-də məntəqə seçki komissiyasının sədri seçki məntəqəsini açıq elan edir, seçki komissiyasının üzvlərinə, orada olan seçicilərə, müşahidəçilərə boş seçki qutularını göstərib möhürləyir, saat 8⁰⁰-da səsvermənin başlandığını elan edir.

Məhərrəm Qasımov seçki günü məntəqə seçki komissiyası sədrinin, katib və üzvlərinin vəzifələri barədə də ətraflı məlumat verib.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Vasif Kazımov qeyd edib ki, hazırda ölkəmiz çox mühüm bir siyasi kampaniya ərəfəsindədir. Xalqımız üçün böyük əhəmiyyət kəsb edən parlament seçkilərinə ciddi hazırlıq işləri görülür. Ölkəmiz demokratik seçkilərin keçirilməsində artıq böyük təcrübə qazanıb. Beynəlxalq müşahidəçilər, tanınmış ictimai-siyasi xadimlər, həmçinin ekspertlər Azərbaycanda keçirilən seçkilərin şəffaf, azad və ədalətli, demokratik olduğunu dəfələrlə bəyan ediblər. Parlament seçkilərinin də demokratik şəraitdə keçiriləcəyini bildirən beynəlxalq təşkilatların nümayəndələri bunu yüksək səviyyədə aparılan hazırlıq işləri ilə əlaqələndirirlər.

Çıxışında parlament seçkilərinin respublikamızın bugünkü ictimai-siyasi həyatında ən böyük siyasi kampaniya olduğunu bildirən Əlahiddə Ümumqoşun Ordunun Mənəvi-psixoloji təminat şöbəsinin rəisi, polkovnik Mirqiyas Rüstəmov bildirib ki, muxtar respublikada xidmət edən hərbi qulluqçuların səsvermələrinin təmin edilməsi üçün 21 qapalı seçki məntəqəsi yaradılıb. Hazırda seçicilər seçici siyahıları ilə tanış edilir, seçici siyahılarında zəruri dəqiqləşmələr aparılır, seçki məntəqələri səsvermə yeri, habelə zəruri seçki ləvazimatları ilə təmin olunur. Hərbi hissə və bölmələrdə hərbçilər arasında maarifləndirmə işlərinə xüsusi diqqət yetirilir. Mirqiyas Rüstəmov qeyd edib ki, hərbi xidmətdə olan seçicilər çox fəaldır. Hərbi hissələrdə mövcud olan qapalı seçki məntəqələri öz vəzifələrinin öhdəsindən peşəkarcasına gələcək, seçicilərin hüquqlarının qorunması, seçici siyahılarının dəqiqləşdirilməsi, səsvermə otaqlarının seçkilərin keçirilməsi üçün hazırlanması, seçicilərin azad və maneəsiz şəkildə səsvermələrinin təmin edilməsi, səsvermənin yekunlarına dair məntəqə seçki komissiyasının rəsmi protokolunun tərtib edilməsi və dərhal dairə seçki komissiyalarına çatdırılması işləri əzmlə, məsuliyyətlə və dəqiqliklə yerinə yetiriləcəkdir.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının katibi Elnur Eyvazov səsvermə prosesindən sonra məntəqə seçki komissiyasında görülən seçki hərəkətləri barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Tədbirdə seçki komissiyaları üzvlərini maraqlandıran suallar cavablandırılıb.

Seminar-treninqə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məhərrəm Qasımov yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamına uyğun olaraq, Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və audit ixtisası Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin hamiliyinə verilib. Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı nazirlik tədbirlər planı hazırlayıb. Tədbirlər planına uyğun olaraq, Naxçıvan Dövlət Universitetində Mühasibat uçotu və audit ixtisasında təhsil alan tələbələrlə görüş keçirilib.

İqtisad fakültəsinin dekanı, iqtisad elmləri doktoru, professor Asif Şiraliyev Naxçıvanda təhsilin inkişafı istiqamətində görülən işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini Hikmət Cəfərov adıçəkilən sərəncamın muxtar respublikadakı ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslarda təhsil alan tələbələrin yüksək səviyyədə hazırlığı, mühasibat uçotu və audit sahəsində kadr potensialının formalaşması baxımından əhəmiyyətindən bəhs edib, nazirliyin iş prinsipi haqqında ətraflı məlumat verib.

Maliyyə Nazirliyinin Dövlət aparatının və hüquq-mühafizə orqanlarının maliyyəsi şöbəsinin müdiri Bulqeyis Novruzovanın “Dövlət büdcəsinin mahiyyəti və planlaşdırılması” mövzusunda çıxışı olub.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Mina QASIMOVA**



# İqtisadiyyat





***Sahibkarlığın inkişafı sahəsində nailiyyətlərin əldə olunmasında ölkəmizdə qəbul edilmiş dövlət proqramları xüsusi əhəmiyyətə malikdir. Dövlət proqramları çərçivəsində iqtisadiyyatın və sahibkarlığın tənzimlənməsi sahəsində mühüm tədbirlər həyata keçirilib, sahibkarlara dövlət maliyyə dəstəyi sistemi formalaşdırılıb. Belə proqramlar eyni zamanda sahibkarlığın inkişafı istiqamətində həyata keçirilən tədbirlərin sistemliliyini təmin edib, bu tədbirləri vahid strategiyanın həyata keçirilməsinə yönəldib. Ölkəmizdə dövlət-sahibkar münasibətlərini tənzimləyən əsas prinsiplərin təkmilləşdirilməsi, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksəkkeyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi müəyyən edilən iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.***

## Sahibkarlıq iqtisadiyyatın aparıcı qüvvəsidir

### *Cari ilin ötən dövründə Naxçıvanda 30 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb*

Böyük uzaqgörənliklə işlənib hazırlanmış və həyata keçirilən iqtisadi inkişaf strategiyasının muxtar respublikamızda da uğurla davam etdirilməsi burada müasir, güclü infrastrukturun qurulmasına, özəl sektorun inkişafına, bu istiqamətdə bir sıra təşkilati, hüquqi və iqtisadi tədbirlərin görülməsinə, biznes fəaliyyəti üçün daha əlverişli mühitin yaradılmasına, yeni müəssisələrin qurulmasına, iş yerlərinin açılmasına zəmin yaradıb.

Ötən müddət ərzində muxtar respublika rəhbərinin qayğısı ilə sahibkarlığın inkişafı istiqamətində ardıcıl, səmərəli və sistemli tədbirlər görülüb, sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin göstərilməsi mexanizmi formalaşdırılıb. Muxtar respublikada özəl bölmənin inkişafında, sahibkarlığa dövlət maliyyə dəstəyinin gücləndirilməsində İqtisadiyyat və Sənaye Nazirliyinin nəzdində Sahibkarlığa Kömək Fondunun işinin səmərəli təşkili xüsusilə əhəmiyyətlidir. Fondun məqsədi muxtar respublikada sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına, əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasına kömək etməkdən, onlara maliyyə dəstəyi göstərməkdən ibarətdir.

Fondun vəsaitləri sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir. 2015-ci ilin ilk 9 ayı ərzində fond tərəfindən 19 yeni layihə olmaqla, 21 layihənin maliyyələşdirilməsinə 9 milyon 758 min manat həcmində güzəştli kreditlər verilib. Ümumilikdə, fond tərəfindən indiyə qədər 1196 layihənin maliyyələşdirilməsinə 117 milyon manatdan çox vəsait sərf olunub. Həmin vəsait sənaye, xidmət, kənd təsərrüfatı təyinatlı sahələrin maliyyələşdirilməsinə yönəldilib. Beləliklə, müxtəlif sənaye məhsulu yönümlü 8 yeni və 1 icrası davam etdirilən olmaqla, 9 layihənin maliyyələşdirilməsinə 2.061.000 manat, kənd təsərrüfatı məhsulları istehsalı, o cümlədən arıçılıq, qarğıdalı əkini, heyvandarlıq və istixana komplekslərinin inkişafı yönümlü 11 yeni və 1 icrası davam etdirilən olmaqla, 12 layihənin maliyyələşdirilməsinə 1.134.200 manat, xidmət sahələrinin inkişafı yönümlü 2 yeni layihənin



maliyyələşdirilməsinə 6.563.000 manat kredit verilib.

Sahibkarlıq fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması, onların hüquqlarının müdafiəsi də diqqətdə saxlanılıb, sahibkarlar nəzarət kitabçaları ilə təmin edilib, nazirlikdə yaradılmış “Qaynar xətt” vasitəsilə sahibkarlıq subyektləri ilə maarifləndirmə istiqamətində işlər aparılıb, onların problemləri öyrənilib və nazirliyin səlahiyyətləri daxilində həllinə köməklik göstərilib.

Sahibkarların fəaliyyətinin dövlət tərəfindən müdafiə olunması, yerli istehsalçıların mənafeyinin qorunması və digər bu kimi funksiyaların yerinə yetirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən biri də bəzi fəaliyyət növlərinin lisenziyalaşdırılmasıdır. Bu sahədəki qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərdən sonra 2015-ci ilin ötən dövrü ərzində muxtar respublikada 323 fəaliyyət növü üzrə xüsusi razılıq (lisenziya) verilib.

Sahibkarların icazələr haqqında ətraflı məlumatlandırılmasını təmin etmək, sahibkarlıq fəaliyyətinə başlamaq, eyni zamanda öz fəaliyyətini genişləndirmək istəyənlər üçün tələb olunan icazə xarakterli sənədlərin, icazələrin verilmə və qüvvədəolma müddətlərinə dair bütün məlumatların vahid mənbədən əldə edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Müəyyən sahibkarlıq fəaliyyəti növləri ilə məşğul olmaq üçün tələb edilən xüsusi razılıq (lisenziya) və icazə sistemi ilə bağlı bəzi məsələlər haqqında” 31 oktyabr 2011-ci il tarixli Fərmanına uyğun olaraq, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının verdikləri icazələr barədə məlumatı əks etdirən internet portalı *(www.icazeler. nax.az)* yaradılıb.

Hər il ənənəvi olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sahibkarlarla keçirdiyi görüş də sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasında mühüm rol oynayır. Sahibkarlarla builki görüş Naxçıvan Biznes Mərkəzində keçirilib, tədbirdə muxtar respublikada istehsal olunan ərzaq və qeyri-ərzaq məhsullarının, əl işləri və sənət əsərlərinin sərgisi təşkil olunub, prioritet hesab edilən sahələrin yaradılması üçün 6 sahibkarlıq subyektinə güzəştli şərtlərlə kreditlər verilib. Bu kreditlər məhsulların istehsalı və ixracı müəssisəsinin, məsaməli beton, elektrik açarları istehsalı sahələrinin, iaşə obyektinin, eləcə də maldarlıq və heyvandarlıq təsərrüfatlarının yaradılmasına sərf olunacaqdır.

Muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektlərinin əlaqələrinin inkişaf etdirilməsi, istehsal olunan məhsulların ixrac imkanlarının artırılması, xarici ölkələrdə tanıdılması məqsədilə onların nəinki ölkə daxilində, xaricdə keçirilən biznes-forum, konfrans, sərgi və digər tədbirlərdə də iştirakı təmin edilir. 2015-ci ilin ötən dövrü ərzində, ümumilikdə, 15 beynəlxalq əhəmiyyətli tədbirdə muxtar respublikadan 60 nümayəndə iştirak edib. Almaniyanın paytaxtı Berlin şəhərində keçirilmiş “Beynəlxaq Yaşıl Həftə-2015” və Birləşmiş Ərəb Əmirliklərində keçirilmiş “Gulfood-2015” beynəlxalq qida sərgisində muxtar respublikadan 12 növdə, 57 çeşiddə məhsullar nümayiş etdirilib.

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, yaxud mövcud olanların fəaliyyəti bərpa edilir. 2015-ci ilin ötən dövrü ərzində Naxçıvan Muxtar Respublikasında 30 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb. Naxçıvandakı istehsal müəssisələrində 119 növdə, 507 çeşiddə ərzaq, 238 növdə, 599 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 357 növdə, 1106 çeşiddə məhsul istehsal olunur. Müəssisələr tərəfindən 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq olmaqla, cəmi 336 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi, bu il 32 layihə üzrə işlərin davam etdirilməsi idxaldan asılılığın ciddi şəkildə azaldılmasında və əhalinin keyfiyyətli məhsullarla tələbatının ödənilməsində mühüm rol oynayır.

Qeyd edilənlər bundan sonra da ümumi iqtisadi inkişafda sahibkarlığın xüsusi çəkisinin artacağını göstərir. Çünki artıq ölkəmizdə sahibkarlıq üçün möhkəm baza yaradılıb. İqtisadi inkişafın aparıcı qüvvəsi hesab olunan özəl sektora, sahibkarlığa diqqət və qayğı hər zaman olduğu kimi, bundan sonra da artırılacaq və ölkəmiz daha da güclənəcək, möhkəmlənəcəkdir.

***Ölkəmizdə aqrar islahatların həyata keçirilməsinin başlıca məqsədi bazar iqtisadi münasibətlərinə uyğun xüsusi təsərrüfat formalarının təşkilinə nail olmaqdan və aqrar bölmənin bütün sahələrində sahibkarlığı hər vasitə ilə inkişaf etdirməkdən ibarətdir. Bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər öz səmərəsini verməkdədir. Bu, xüsusilə “Kənd təsərrüfatı ili” elan edilən 2015-ci ildə daha geniş vüsət almışdır. Əhalinin istehlak səbətində heyvandarlıq məhsullarının xüsusi çəkisi kifayət qədər ağırdır.***

*Kənd təsərrüfatı ili*

## Muxtar respublikada heyvandarlığın inkişafına dövlət dəstəyi gücləndirilir



Ət və süd məhsullarına olan tələbatı daxili istehsal hesabına ödəmək üçün bu sahəyə sərmayə qoyuluşu ildən-ilə artır, aqrar bölmədə sahibkarlığın inkişafına böyük önəm verilir.

Yaradılmış heyvandarlıq komplekslərinin və kiçik sahibkarlıqla məşğul olanların səmərəli fəaliyyəti nəticəsində muxtar respublikada yüksək məhsuldar heyvanların baş sayı artmış, əhalidə olan yerli malqaranın cins tərkibi yaxşılaşmış, nəticədə, heyvandarlıq məhsullarının (ət və süd) istehsalı xeyli çoxalmışdır ki, bu da əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Belə ki, 2015-ci ilin yanvar-sentyabr aylarında muxtar respublikada diri çəkidə 17024 ton ət, 67511,8 ton süd istehsal olunmuşdur ki, bu da 2014-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə müvafiq olaraq, 13,7 və 1,7 faiz çoxdur. Heyvandarlıq məhsulları istehsalının həcmi 2 dəfə artaraq 93 milyon 424 min manata çatmışdır.

2015-ci ilin yanvar-sentyabr ayları ərzində heyvandarlıq təsərrüfatlarında süni mayalandırma işi daha da genişləndirilmiş və 3778 baş mal-qara süni yolla mayalandırılmışdır. Əvvəlki dövrdə mayalandırılmış mal-qaradan 3028 baş sağlam bala alınmışdır. Muxtar respublikaya cari ilin ötən dövrü ərzində 249, ümumilikdə isə 1927 baş damazlıq cins mal-qara gətirilmişdir.

1 oktyabr 2015-ci il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 112 min 598 baş, qoyun və keçilərin sayı 689 min 899 baş olmuşdur ki, bu da 1 oktyabr 2014-cü il tarixə olan göstəriciləri müvafiq olaraq 2,5 və 3,1 faiz üstələyir.

Qeyd etdiyimiz kimi, ölkəmizdə kənd təsərrüfatının prioritet sahələrindən sayılan heyvandarlığın inkişaf etdirilməsinə diqqət və qayğı ildən-ilə artırılır. Ölkə Prezidentinin 2015-ci il avqust ayının 19-da imzaladığı “Heyvandarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi haqqında” Sərəncam da bu məqsədə xidmət edir.

2015-ci ilin doqquz ayı ərzində kənd təsərrüfatı sahəsində heyvandarlıq üzrə 8 layihənin maliyyələşdirilməsinə 456,1 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Şərur rayonunun Arbatan kəndində “Arbatan Şirkəti” MMC tərəfindən təsərrüfatın fəaliyyətinin genişləndirilməsi məqsədilə ümumi sahəsi 550 kv.m olan tövlənin tikintisinin, Şərur rayonunun Həmzəli kəndində fiziki şəxs Yaşar Əliyev tərəfindən 35 baş iribuynuzlu maldarlıq təsərrüfatının, Babək rayonunun Yarımca kəndində fiziki şəxs Muxtar İsmayılov tərəfindən 4 baş iribuynuzlu maldarlıq təsərrüfatının, Culfa rayonunun Dizə kəndində fiziki şəxs Mahmud İbrahimov tərəfindən 350 baş xırdabuynuzlu heyvandarlıq təsərrüfatının ikinci bölməsinin yaradılması istiqamətində işlər başa çatdırılmış, Naxçıvan şəhərində fiziki şəxs Hüseyn Əliyev tərəfindən 25 baş iribuynuzlu və 100 baş xırdabuynuzlu heyvandarlıq təsərrüfatının, Naxçıvan şəhərində fiziki şəxs Azər Şahverdiyev tərəfindən 30 baş iribuynuzlu heyvandarlıq təsərrüfatının, Şərur rayonunun Havuş kəndində “Havuş” MMC tərəfindən min baş keçiçilik təsərrüfatının, Şahbuz rayonunun Nursu kəndində fiziki şəxs Təbriz Kazımov tərəfindən 200 baş xırdabuynuzlu heyvandarlıq təsərrüfatının ikinci bölməsinin yaradılması istiqamətində işlər davam etdirilir.

Qeyd etdiyimiz kimi, bu il ölkəmizdə, eləcə də muxtar respublikamızda “Kənd təsərrüfatı ili” elan olunmuşdur. Ona görə də cari ildə əsas diqqət aqrar sektorun inkişafına yönəldilmişdir. Heyvandarlığın inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi imkan verəcək ki, bu sahənin aqrar sektorda payının artırılmasına nail olunsun. İndiki məqamda heyvandarlığın inkişafına kompleks yanaşma, həm daha çox ət və süd istehsalına imkan verən xüsusi növ mal-qaranın alınması, bu istiqamətdə məhsuldarlığın artırılmasına hesablanan yeni heyvandarlıq kompleksinin qurulmasına, həm də aqrar sahənin inkişafına şərait yaradacaq. Eyni zamanda bu, imkan verəcək ki, aqrar sektorun ümumi daxili məhsuldakı payını artırmaq mümkün olsun.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin mətbuat xidməti***

## Hərbi hissələrlə tanışlıq gənclərin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasında gənclərin zabit və əsgərlərlə görüşü təşkil edilib.*

Görüşün keçirilməsində məqsəd gənclərə vətənpərvərlik hissinin aşılanması, çağırışyaşlı gənclərin hərbi xidmətə hazırlanması, onların Vətənə məhəbbət, dövlətə sədaqət ruhunda tərbiyə olunması və əsgərlərdə ruh yüksəkliyinin artırılmasından ibarət olub.

Görüşdə Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının zabiti, baş leytenant Orxan Seyidov, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Nicat Babayev və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin zabiti, mayor Məftun Xəlilov çıxış edərək tədbirin keçirilməsinin əhəmiyyətindən danışıblar. Bildirilib ki, Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadası müasir maddi-texniki bazası, yüksək döyüş qabiliyyəti ilə seçilir. Son illər briqadanın ərazisində müasir standartlara uyğun yaşayış binaları, yeməkxana, anbarlar, müasir qazanxanalar və digər sosial-məişət obyektləri inşa edilib, hərbi hissə abad və yaraşıqlı bir şəhərciyə çevrilib. Şəxsi heyətin geyimi, qidalanması, yaşayış və məişət şəraiti diqqət mərkəzində saxlanılır. Bütün bu görülən işlər şəxsi heyətin mənəvi-psixoloji vəziyyətini daha da yüksəldir.

Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universiteti tələbələrinin iştirak etdiyi görüşdə gənclər briqadanın ərazisində yerləşən əsgər yataqxanası, xəstəxana və təlim-tədris mərkəzi ilə tanış olublar. Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin təqdim etdiyi konsert proqramı alqışlarla qarşılanıb.

Sonda gənclər əsgər yeməkxanası ilə tanış olub, əsgərlərlə birlikdə nahar ediblər.

✍ **Arzu ABDULLAYEV**

## Poliomielitə qarşı profilaktik tədbirlər gücləndirilir

***Müasir səhiyyədə epidemiyalara qarşı ən qabaqlayıcı tədbirlərdən biri peyvənddir. Peyvəndlə bir sıra qorxunc xəstəliklərin qarşısı alınıb. Artıq bu gün ölkədə poliomielit, difteriya xəstəlikləri yoxdur. Dünyada ən çox peyvənd 13 xəstəliyi əhatə edir. Xatırladılmalıdır ki, sovet dönəmində ölkəmizdə cəmi 5 xəstəliyə qarşı peyvənd vurulurdu. İndi isə 11 xəstəlik üzrə immunlaşdırma tədbirləri həyata keçirilir.***

Muxtar respublikanın poliomielitdən azad statusunun saxlanılması, digər ölkələrdən gətirilmə polivirusların vaxtında aşkar edilməsi və əks-epidemik tədbirlərin həyata keçirilməsi üçün ciddi epidemioloji nəzarətin təmin olunması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi hər hansı səbəblərə görə poliomielitə qarşı peyvənd almayan uşaqların OPV vaksini ilə immunlaşdırma işinin dərhal həyata keçirilməsi üçün xüsusi tədbirlər planı hazırlamış və muxtar respublikanın bütün ərazilərində 0-5 yaşadək uşaqlar arasında cari ilin oktyabr-noyabr aylarında 2 turdan ibarət əlavə immunlaşdırma tədbirlərinə başlanılmışdır.

İlk tura Naxçıvan şəhərində yerləşən uşaq bağçalarından start verilmişdir. 11 uşaq bağçasında 2 min 400-ə yaxın uşaq arasında bu tədbiri keçirmək üçün sertifikatı olan həkim və tibb bacılarından ibarət briqada təşkil olunmuşdur. Artıq Naxçıvan şəhərindəki 3, 4, 5, 6 nömrəli bağçalarda 800-ə yaxın uşaq poliomielitə qarşı vaksinasiya almışdır.

Qarşıdakı iki gün ərzində digər uşaq bağçalarında da immunlaşdırma tədbirləri aparılmaqla ilk tura yekun vurulacaq. Əlavə olaraq bir aydan sonra ikinci tur keçiriləcək. Məqsəd 0-5 yaşadək uşaqlar arasında baş verən onurğa beyni iflici – "uşaq süst iflici"nin qarşısını almaqdır.

## Şagirdlər arasında payız mövsümünün dərin tibbi müayinələri aparılır

***Son illər uşaqların, xüsusən məktəbyaşlı uşaqların sağlamlığının qorunmasına, onların müayinə və müalicəsinə, dispanserizasiyasının təşkilinə xüsusi diqqət yetirilir.***

Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, hər il yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktika xarakteri daşıyan dərin tibbi yoxlamalar aparılır. Bu il payız mövsümünün kütləvi profilaktik müayinələri muxtar respublikanın bütün təhsil müəssisələrini əhatə etmiş, 4 min 73 uşaq göz, stomatoloji, nevroloji, cərrahi, dərizöhrəvi və digər xəstəliklərin ilkin əlamətlərinə görə əlavə və təkrar yoxlanmalar üçün xəstəxanaya – stasionara dəvət olunmuşdur.

Naxçıvan şəhərinin 20 tam orta məktəbində 10 min 541 şagird tibbi yoxlamadan keçirilib ki, bu da şəhər məktəblilərinin 97 faizini təşkil edir. 1008 oftalmoloji, 491 LOR, 213 nevroloji, 155 cərrahi, 55 dermatoveneroloji, 201 endokrinoloji, 181 pediatrik xəstəliyə meyilli uşaqların dispanser qeydiyyatına götürülərək daha yüksəkixtisaslı mütəxəssis həkimlər (ftiziatr, kardioloq, nevropatoloq, dermatoloq, uroloq və sair) tərəfindən konsultasiyası, zəruri hallarda isə stasionar müalicəsi təşkil edilmişdir.

Şagirdlər arasında payız mövsümünün dərin tibbi yoxlamalarına bu il oktyabrın 12-dən start verilmişdir. Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən şəhər məktəblərində müayinənin təşkili üçün əvvəlcədən cədvəllər tərtib olunmuş, məktəblərdə işləyən həkim və tibb bacıları xəstəxananın poliklinika şöbəsinə dəvət edilərək dispanserizasiya haqqında təlimatlandırılmışlar.

Hazırda şagirdlər əvvəlcədən məktəb həkimi tərəfindən müayinələrdən keçərək qruplaşdırılır, sonra isə LOR, cərrah-travmatoloq, oftalmoloq, endokrinoloq, nevropatoloq, stomatoloq və digər ixtisaslı həkimlər tərəfindən yoxlanılır. Xəstəlik aşkar edilən uşaqlar dispanser qeydiyyatına götürülərək göstəriş əsasında stasionar müalicəyə göndərilirlər. Artıq Naxçıvan şəhərində yerləşən məktəblərin 12-də 6 min 570 uşaq müayinələrə cəlb olunmuşdur. Digər məktəblərdə də müayinələr davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Basketbol çempionatının 9-cu turu yekunlaşıb

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi kişilər arasında basketbol üzrə muxtar respublika çempionatında 9-cu turun oyunlarına yekun vurulub.*

Turnir cədvəlinin lideri "Naxçıvan" komandasının bu dəfə məğlub etdiyi komanda "Culfa" olub. Culfalı basketbolçular bu görüşdə meydanı 67:41 hesablı məğlubiyyətlə tərk ediblər. "Ordubad" komandası "Naxçıvan" Universiteti komandasının qonağı olub. Daha baxımlı oyun sərgiləyən qonaqlar 50 xallıq fərqlə qalib gəliblər – 20:70. "Culfa" komandasının xal itirməsindən isə "Babək" maksimum istifadə edib. "Sədərək" komandasının qonağı olan babəklilər aktivlərinə 2 xal yazdırmağa müvəffəq olublar – 35:42. Son pillələrdən yaxa qurtarmağa çalışan "Şərur" komandası isə turu məğlubiyyətlə başa vurub. Onlar səfərdə "Lokomotiv"ə uduzublar – 26:16.

✍ **Ceyhun MƏMMƏDOV**

| S/№ | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan | 9 | 9 | 0 | 709-335 | 18 |
| 2. | Ordubad | 9 | 8 | 1 | 528-312 | 17 |
| 3. | Culfa | 9 | 5 | 4 | 454-430 | 14 |
| 4. | Babək | 9 | 5 | 4 | 389-365 | 14 |
| 5. | Lokomotiv | 9 | 4 | 5 | 323-370 | 13 |
| 6. | "Naxçıvan" Universiteti | 9 | 2 | 7 | 335-545 | 11 |
| 7. | Şərur | 9 | 2 | 7 | 231-405 | 11 |
| 8. | Sədərək | 9 | 1 | 8 | 316-523 | 10 |

## Əməyi qiymətləndirilənlər minnətdarlıq edirlər

***Ölkəmizdə qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirən, dövlətinə və xalqına sədaqətlə xidmət edən vətənpərvər, zəhmətkeş insanların əməyi daim yüksək qiymətləndirilir, onlar müxtəlif orden, medal və fəxri adlarla təltif olunurlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2015-ci il 21 oktyabr tarixli sərəncamları ilə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası əməkdaşları təltif olunub. Təltif olunanlar sırasında Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının əməkdaşları da vardır. Onların ikisini redaksiyamıza dəvət edib sevinclərini bölüşdük.***



*Səbuhi HÜSEYNOV – Təhsil İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin sədri:* – 25 ildir ki, muxtar respublikamız blokada şəraitində yaşayır. Belə bir şəraitdə yaşamağımıza baxmayaraq, iqtisadiyyatımızın, mədəniyyətimizin və sosial həyatımızın elə bir sahəsi yoxdur ki, yeni inkişaf mərhələsinə çatmasın. Bu, bizi qəlbən sevindirir. Çünki insanların rahat və firavan yaşaması, zəhmətkeş insanların layiqli və təhlükəsiz iş şəraiti ilə təmin olunması Naxçıvan Muxtar Respublikasında daim diqqət mərkəzindədir. Bu gün 70 min nəfərdən artıq üzvü olan Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası və onun yerli strukturları da qayğı ilə əhatə olunub. 2008-ci ildə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının inzibati binası əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Dövlətimizin bu qayğısı muxtar respublikamızda həmkarlar işinin canlanmasına təkan verib. Bu gün hər bir ittifaq üzvü Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısını öz üzərində hiss edir. Sevinirəm ki, bu qayğıdan mənə də pay düşüb. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Azərbaycan Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülmüşəm. Əməyimə verilən bu yüksək qiymətə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

*Məhsəti MƏMMƏDOVA – Dövlət və Bələdiyyə İdarələri İşçiləri Həmkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Komitəsinin təlimatçısı:* – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası əməkdaşlarının təltif olunanlar sırasında adımın olması məni çox sevindirdi. Bu gün cəmiyyətdə, ictimai mühitdə həmrəyliyi təmin edən təşkilatda fəaliyyət göstərmək mənim üçün böyük şərəfdir. Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası muxtar respublikada Heydər Əliyev quruculuq xəttinin davam etdirilməsinə, sosial-iqtisadi inkişaf sahəsində qarşıda duran vəzifələrin həllinə öz töhfəsini verir. İnsanların həyat şəraitinin, rifah halının daha da yaxşılaşmasına yönəlmiş bərpa və quruculuq tədbirlərinin görülməsində, ətraf mühitin sağlamlaşmasında, yaşıllaşdırma iməciliklərinin təşkilində və keçirilməsində həmkarlar ittifaqlarının üzvləri fəallıq göstərir, öndə gedir. Bu işlərdə mənim də əməyimin olması sevindiricidir. "Tərəqqi" medalına layiq görülməyim kiçik əməyimə verilən böyük qiymətdir. Bundan sonra üzərimizə daha da böyük məsuliyyət düşür. İnsan o vaxt özünü xoşbəxt hiss edir ki, başqasına xeyir verir, Vətəni, xalqı üçün yararlı bir vətəndaş olduğunu hiss edir, onun əməyini dövləti qiymətləndirir. Mən bundan sonra da yeni cəmiyyət quruculuğunda yaxından iştirak edəcək, sosial tədbirlərin həyata keçirilməsində əlimdən gələni əsirgəməyəcəyəm.



✍ **Sara ƏZİMOVA**

## İşaxtaran vətəndaşların nəzərinə!

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Naxçıvan Regional Peşə Tədris Mərkəzində dərzi peşəsi üzrə kurs təşkil edir.

Tədrisin müddəti 3 aydır. Muxtar respublikanın rayonları üzrə tələbat aşağıdakı kimidir:

| | Kəndin adı | Vakant yer |
|---|---|---|
| | **Şərur rayonu üzrə** | |
| 1. | Yuxarı Aralıq | 1 |
| 2. | Qarxun | 1 |
| 3. | Xanlıqlar | 1 |
| 4. | Danyeri | 1 |
| 5. | Aşağı Yaycı | 1 |
| 6. | Cəlilkənd | 1 |
| 7. | Siyaqut | 1 |
| | **Cəmi:** | **7** |
| | **Babək rayonu üzrə** | |
| 1. | Şıxmahmud | 1 |
| 2. | Cəhri | 1 |
| | **Cəmi:** | **2** |
| | **Şahbuz rayonu üzrə** | |
| 1. | Badamlı | 1 |
| 2. | Kolanı | 1 |
| 3. | Biçənək | 1 |
| | **Cəmi:** | **3** |
| | **Kəngərli rayonu üzrə** | |
| 1. | Çalxanqala | 1 |
| 2. | Şahtaxtı | 1 |
| | **Cəmi:** | **2** |

Əqli və fiziki potensialları dərzi peşəsi üzrə çalışmağa uyğun olan sağlamlıq imkanları məhdud şəxslər də müraciət edə bilərlər.

Kursu müvəffəqiyyətlə bitirənlər qeyd olunan kəndlərdə fəaliyyət göstərən xidmət mərkəzindəki dərzi sexlərində işlə təmin olunacaqlar.

Peşə hazırlığı kursunda iştirak etmək istəyənlər 2015-ci il noyabr ayının 20-dək tələb olunan aşağıdakı sənədləri yaşadıqları ərazi üzrə məşğulluq mərkəzlərinə təqdim edə bilərlər:

1. *Yaşayış yerindən arayış*
2. *Şəxsiyyət vəsiqəsinin surəti*
3. *Tibbi yoxlama haqqında arayış.*

**Əlaqə telefonu: 545-32-33**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Mühbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 805